# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətinin ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 04 noyabr tarixli 24-VII FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

“Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətinin ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 04 noyabr tarixli 24-VII FR nömrəli Fərmanının 3.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikası Energetika İdarəsinin yeni strukturunun təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2004-cü il 22 noyabr tarixli 148 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın II bölməsinin “26-1. Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti” hissəsi ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı”nın 4 - 6-cı hissələri ləğv edilsin.

4. “Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin kollegiyasının üzvlərinin sayı və tərkibinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 3 avqust tarixli 75 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

5. “Bir sıra təsərrüfathesablı dövlət müəssisələrinin və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan bir sıra hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 fevral tarixli 28 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

6. “Naxçıvan Muxtar Respublikasında elektrik enerjisindən istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 168 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

7. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Elşad Əliyev**
**Naxçıvan Muxtar Respublikası Baş nazirinin**
**birinci müavini**

Naxçıvan şəhəri, “ 29 ” “ dekabr ” 2025-ci il

№ 54